# Məktubların harayı

## Didərgin yurddaşlarımız itirdikləri torpaqlara qayıtmayınca, on minlərlə şəhidimizin qanı alınmayınca, düşmən tapdağındakı torpaqlarımızda üçrəngli bayrağımız dalğalanmayınca bu xalq sakitləşməyəcək

**"Hörmətli Prezident, cənab Ali Baş Komandan! Mən Ağdam rayonu 36 saylı məktəbin 11-ci sinif şagirdiyəm. Erməni təxribatlarının həmişə şahidi olmuşuq və mənfur düşmən indi də təxribatlarını davam etdirir. Son günlər Milli Ordumuzun erməni təxribatlarına tutarlı cavab verməsi hamımızı qürurlandırdı. Biz bu uğurlara ürəkdən sevinirik. İnanırıq ki, yaxın vaxtlarda işğal altındakı bütün rayonlarımız Sizin rəhbərliyiniz və qətiyyətinizlə azad ediləcək. Əminik ki, o gün uzaqda deyil. Vətənimiz uğurunda döyüşməyə hər an hazırıq. Biz Vətənimizin və Sizin müsəlləh əsgərinizik".**

Xətai rayon sakini Vəliyev Yaşar Ceyhun oğlunun insanı qürurdan kövrəldən bu sətirləri ermənilərə qarşı aprel döyüşləri zamanı Azərbaycan prezidenti İlham Əliyevə ünvanlanan minlərlə məktublardan biridir. Ordumuzun təmas xəttində qazandığı uğurlardan ruhlanan ölkə vətəndaşları, eləcə də Türkiyə, Rusiya və digər ölkələrdə yaşayan milyonlarla soydaşlarımız prezidentin ünvanına döyüş ruhlu, qürur dolu məktublar ünvanladılar. Məktəblilərin, tələbələrin, müharibə veteranlarının, qız və qadınların, qocaların düşmənə qarşı vuruşmaq, torpaqlarımızı xilas etmək, qisas və qələbə arzusu döyünürdü bu məktubların hər sətrində. Döyüşə can atan, torpaqlarımızı düşmən işğalından xilas etmək əzmi ilə alışıb-yanan insanlar idi bu məktubların müəllifləri. Müharibəyə könüllü yollanmaq üçün yaş sərhədi də itdi. "Dörd günlük müharibə" ərzində vətəndən uzaqlarda təhsil alan tələbələrimizin dilindən "Biz hazırda xaricdə olsaq da Vətənimiz uğrunda döyüşməyi hər zaman özümüzə borc bilirik. Yetər ki, əmr edin, cənab Ali Baş Komandan! Biz torpaqlarımızı düşmən tapdağından azad etməyi özümüzə şərəf bilirik. Biz gənclər Sizin əmrinizi gözləyirik" sözlərini eşidiriksə, 15 yaşlı Nərmin Rauf qızının "Yaşımın az olmasına baxmayaraq, mən də əsgərlərimizlə birlikdə torpaqlarımızı işğaldan azad etmək istəyirəm. Öz ordumuza, ən əsası da Sizə güvənirik və hər an Vətən uğrunda canımızdan keçməyə hazırıq"- cümlələrindən qürur duyurduqsa, "Cəbhədə əldə olunmuş qələbələrə görə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Düşmənə vurulan sarsıdıcı zərbələr hər bir azərbaycanlını ürəkdən sevindirir. Mən də öz növbəmdə hər an köməkliyimi göstərməyə hazıram",- deyə yazan Biləsuvar rayonunun Ağalıkənd kəndindən Cəfərov Nəriman Fərman oğlunun sözləri bizi fərəhdən göz yaşına boğurdusa, "Biz "Bir millət, iki dövlətik". Canımızla, qanımızla daim azərbaycanlı qardaşlarımızın yanındayıq. Biz son nəfəsimizədək sizinləyik. Vətənimizin müdafiəsi üçün əmrinizi gözləyirik", - deyə qardaş Türkiyədən milyonlarla türk yanımızda olmalarını ifadə edirdisə, türk xalqlarının birliyi, vətən övladlarının qeyrəti, milli ruhu ilə necə qürur duymamaq, zəfərə inanmamaq olardı? Savaşın əks-sədası insanların döyüş ruhunun çoxdan ölməsi, vətənpərvərlik hissinin itməsi ilə bağlı bəzən səslənən fikirləri altüst etdi. Elektron məktublarda, hiss-həyəcan dolu kağız parçalarında Ali Baş Komandana ünvanlanan müraciətlərdə Azərbaycan, onun parlaq gələcəyi üçün döyünən qəlblərin əks-sədası, yağı tapdağında qalan torpaqlarımızın iniltisi, şəhidlərimizin ruhu, analarımızın, qız-gəlinlərimizin fəryadı, körpələrimizin göz yaşı vardı. Həmvətənlərimiz, soydaşlarımız cəbhəyə yollanmaq, xalqımızla bir olmaq, prezidentin, ordumuzun ətrafında sıx birləşmək istəyirdilər. "Dörd günlük müharibə" millətimizin hər zaman öz torpağı uğrunda vuruşmağa hazır olduğunu, torpağı canı və qanı bahası ilə qorumağa qadir olduğunu, Milli Ordumuzun qüdrətini bir daha sübut etdi.



### MÜHARİBƏNİ BİZ BAŞLAMAMIŞDIQ

Aprel müharibəsinin cəmiyyətdə doğurduğu əks-səda xalqımızın qələbə istəyinin təbii olduğunu nümayiş etdirdi. Ziyalılarımız dörd gün davam edən döyüşlərdə baş verənlərə nəzər salaraq müharibəni pisləsələr də, torpaqlarımız uğrunda savaşın haqq səsini, qocalı-cavanlı insanların, xüsusən də gənclərin döyüşə can atmalarından qürur duyduqlarını bildirirlər.

"Müharibəyə biz başlamamışdıq. Biz düşmənin cavabını verməyə məcbur olduq. Çünki dinc əhaliyə o qədər təcavüz oldu ki, onun qarşısını almalı idik. Bununla da Azərbaycan ordusu öz qüdrətini və gücünü göstərdi", - deyə **millət vəkili Aqiyə Naxçıvanlı** dünyanın artıq bu gücdən xəbərdar olduğunu qeyd etdi: "Ermənistan və beynəlxalq aləm ordumuzun qüdrətini gördü". Münaqişəni sülh yolu ilə həll etmək istəyən ölkə prezidentinin fikirlərini dəstəkləyən millət vəkili belə bir məqamda atəşkəsin ən gözəl addım olduğunu qeyd edir: "Hesab edirəm ki, ruh düşkünlüyü lazım deyil. Qoy yuxulayan Minsk qrupu ayılsın. Mürgüləyən digər beynəlxalq təşkilatlar da bir az hərəkətə gəlsinlər. Qoy bilsinlər ki, Azərbaycan xalqının hissləri ilə oynamaq olmaz. Yəni bu xalq lazım olan məqamda pələng kimi qalxacaq. Biz gücümüzü dünyaya göstərdik. Ona görə bu fasilənin özü gözəl bir məqamdır. Biz bunu təkcə özümüz üçün eləmirik, həm də dünyaya "Siz belə istəyirsinizsə, gəlin məsələləri həll edin" mesajını veririk. Çünki Qarabağ təkcə Azərbaycanın deyil, dünyanın problemidir. Dünyanın hegemon dövlətləri var ki, başqa dövlətlərə öz gücünü hiss etdirmək istəyir. İndi qoy onlar gəlib bu məsələni həll etsinlər. Biz bəyəm Ermənistanın torpağına təcavüz etmişik? Dünyaya nə qədər yalan, böhtan yayırlar. İndi də dinc xalqın üstünə düşüblər, insanların evini dağıdır, onları öldürürlər. Biz heç vaxt onlara qarşı bu cür hərəkətləri etməmişik. Öz torpağımızı, öz vətəndaşlarımızı müdafiə edirik. Ona görə də nikbin əhval-ruhiyyə qalmalıdır. Erməni tərəfi bilməlidir ki, bircə qarış torpağımızı da onlara verməyəcəyik. Bütün bu məsələlər həll olunana kimi Azərbaycan xalqı sakitləşməyəcək. Münaqişə dondurulmuş da qala bilməyəcək. Ermənilər yenə atəşkəsi pozarlarsa, yenə də cavablarını alacaqlar". Orduya qoşulmaq üçün prezidentə və Müdafiə Nazirliyinə müraciət edən gənclərin çoxluğundan fərəhləndiyini bildirən millət vəkili bu axının qarşısını almağın mümkünsüzlüyünü bildirir: "Bu, artıq xalq selidir. Əgər belə bir müraciət olsa, yaşlı qadınlar da müharibəyə getmək istəyər. Biz hamımız müharibəyə getməyə hazırıq. Heç olmasa sarğılar sala bilərik. Bu baxımdan, heç bir ruh düşkünlüyünün olacağına inanmıram. Əksinə, bu zəfəri xalq neçə illər idi gözləyirdi. Bu, böyük qələbədir. Biz bütün dünyaya sübut etdik ki, bu, artıq əvvəlki silahsız xalq deyil ki, aldadıb əlindən Şuşanı alasınız. Torpaqlarımızı alınmayana qədər Azərbaycan xalqı sakitləşən deyil. Bircə qarış torpağımızı da heç kimə verən deyilik. Biz 4 gün ərzində gedən müharibə ilə bunu sübut elədik".

### ƏGƏR ÇAĞIRIŞ OLSA...

Müasir gənclərin döyüş ruhunun ölməsi, vətənpərvərlik hisslərinin itməsi ilə bağlı səslənən fikirlərə etiraz edən **Xalq şairi Sabir Rüstəmxanlı** gəncliyi ittiham etməyin əleyhinədir: "Azərbaycan gəncliyi mürəkkəb bir dövrdən keçib, əziyyətlər görüb. Onlar bu gün Vətənə bu qədər bağlıdırsa, bütün əzabların üstündən keçib yenə "Mən vuruşaram" deyirlərsə, bu, qəhrəman bir nəsildir". Bu gün Azərbaycana, bəlkə də bütövlükdə türk dünyasına qarşı genetik savaş getdiyini bildirən Xalq şairi bütün hücumlara baxmayaraq millətin öz yerində olduğunu qeyd edir: "Kənar təsirlər, qloballaşma, başqa mədəniyyətlər nə qədər təsir göstərsə də, gənclik ruhunun alt qatında olan böyük vətənpərvərlik duyğusundan heç vaxt aralı düşməyib: "Son günlərin hadisələri bunu aydın göstərdi. Əgər çağırış olsa onminlərlə gənc cəbhəyə yollanar. Xalq ruhunu qoruyub saxlayıb. Əlinin zəhməti ilə dolanan, saf, sadə, torpağa bağlı olan, əli qabarlı fəhlə, kəndli - bu millət heç vaxt əyilməz. Bu millət heç vaxt mənəvi dəyərlərini itirməz. Çünki millət bir gündə dəyişə bilməz. Biz heç vaxt öz millətimizin qüsurlarından xəcalət çəkməli deyilik. Bizim millət dünyanı sevən böyük insanlar, şəxsiyyətlər yetişdirib. Aprel döyüşləri bir daha Azərbaycan insanının vətənpərvərlik duyğularının yerində olduğunu göstərdi. Gənclər istənilən vaxt öz torpağını qorumağa hazırdır".

**Professor Şahlar Əsgərov** isə hesab edir ki, "dörd günlük müharibə"dən sonra sülh ən optimal yol kimi seçilib: "Biz artıq gücümüzü bir qədər tətbiq elədik. Bu o deməkdir ki, bir dəfə tətbiq olunan güc dalbadal tətbiq oluna bilər".

### DÜNYA BU MÖVZU İLƏ YAŞADI

Azərbaycan diasporu, xaricdə yaşayan bütün həmvətənlərimiz də bu məsuliyyətli və həlledici tarixi mərhələdə Azərbaycan Ordusu ilə həmrəylik nümayiş etdirməyi, ordumuz və onun Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşməyi bacardılar.

"Mənim təhsilim yoxdur. İlk okulu bitirmişəm. Ancaq əvəzində oğlumun döyüşə yazılmasını istəyirəm. Mən gecədən sübhədək Azərbaycan əsgərləri üçün dua edirəm. Onların zəfər qazanmasını istəyirəm". Anadoludan yaşlı bir qadının sosial mediada yazdığı bu sözləri xatırlayan **Giresun Universitetinin professoru Aygün Attar** həmin günlər cəbhədəki əsgərlərin qəhrəmanlığını yüksək səviyyədə yaşadıqlarını, şəhidlərimizlə bağlı xəbərlərdən üzüldüklərini deyir: "Aprel döyüşləri zamanı Azərbaycan hansı duyğuları keçirirdisə, Türkiyə ictimaiyyəti də o hissləri keçirirdi. Bütün ictimaiyyət - qəlbi Azərbaycanla vuran insanlar dörd gün boyunca yatmadılar. Hamı sosial mediada göz yaşları ilə cəbhədə baş verənlərə münasibət bildirirdi, xəbərləri izləyirdi. 4 gün ərzində Google axtarış sistemində ən çox aranan kəlmələr Dağlıq Qarabağdakı müharibənin nəticələri, Azərbaycan əsgərlərinin durumu ilə bağlı idi. Hər kəs bacardığı qədər Azərbaycan xalqına dəstək olmağı özünə vəzifə bilirdi. Türkiyə həmin dörd günü bu mövzu ilə yaşadı".

Aprel döyüşləri Qarabağ sevgisinin insanlarımızın canına hopduğunu nümayiş etdirdi. Bizim gənclər dünyaya dövlət qurmağı öyrədə bilən bir millətin övladı olduqlarını göstərdilər. "Vətən uğrunda şəhid olmasa, o, Vətən olmur"- kəlmələri isə artıq hamı üçün dəyişməyən şüardır. Doğma yurd yerlərindən analarımızın çörəyinin ətri gəlməyincə, didərgin yurddaşlarımız itirdikləri torpaqlara, ev-eşiklərinə qayıtmayınca, on minlərlə şəhidimizin qanı alınmayınca, düşmən tapdağında inləyən torpaqlarımızda üçrəngli bayrağımız dalğalanmayınca... bu xalq sakitləşməyəcək. Aprel günlərində olduğu kimi...

**Təranə Məhərrəmova**

**Yazı Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin Azərbaycan Mətbuat Şurası ilə birgə keçirdiyi "Milli Ordumuzun aprel sınağı: vətənpərvərliyin Qarabağ vəhdəti və yeni qəhrəmanlıq salnaməsi" mövzusunda müsabiqəyə təqdim olunur**